

ƏDALƏT NƏCƏFOĞLU

# BACI XƏYANƏTİ

Keçmiş zamanlarda
bir Məmləkətin
Sakinləri arasında
iki bacıdan ibarət
bir ailə də yaşayırdı.
Onlar Məmləkətin
çox kasıb
ailəsi sayılırdı.
Uşaq ikən itirmiş
valideynlərin.
Çətin olsa da yaşamağı
bacarır onlar.
Əkin sahəsində çalışıb,
mal-qara da
otarır onlar.
Gündəlik qazancla
kifayətlənib,
xoş əhvalla yaşayırdılar.
Böyük bacı
ailə də qurmuş.
Əfsus ki, övladı
hələ olmamış.
Kiçik bacı isə
subaydır hələ.
Ailə qurmağı
düşünmür belə.
Hər bir işdə
həvəs göstərir,
Əkin sahəsində
köməklik edər.
Mal-qara otarmağa
Vaxtı da yetər.
Bu məmləkətin
cavan bir Şahı da vardı.
Gördüyü yuxulara
Çox inanardı.
Bir neçə gün yuxuda
görür ki, belə;
Məmləkətin ən kasıb qızıyla
gərək evlənə.
Hərgah əl çəksə
o, gördüyündən.
Bütün var-dövləti
çıxacaq əldən.
Şah da Vəzirə söyləyir
yuxu gördüyündən.
Belə bir məsləhət də
alır vəzirdən:
Soraq edək, axtaraq
bir kasıb qızı.
Çin olsun Şahın
gördüyü yuxu.
Axtarıb tapırlar
o, kasıb qızı.
Elçi göndərməyə
Şah olur razı.
El adətilə
elçilər gedir.
Razılıq hərisini
bacısı deyir.
O gündən bacısı
qısqanclıq edir,
özü-özüylə
söhbət də edir.
Şən bacım da
qismətə bir bax.
Həyat yoldaşı
olacaqdı Şah.
Başlayır bacıya
hiylə qurmağa,
onun xoşbəxtliyin
əldən almağa.
Geyinir toy libasın
Şahla bacısı.
Qırx gün, qırx gecə
yayılır toyun sədası.
Verilir Ağsaqqal,
Ağbirçəklərin
xeyir-duası.
Gəlmir dilinə
təbrik sözü
desin bacısı.
Bir neçə ay
keçmişdi toydan.
Yeni hiylələr axtarır
bacısı durmadan.
Eşidərkən bacısı
övlad gözləyir.
Körpənin gələn gününü
o, dəqiqləşdirir.
Yetişir körpənin
gəliş məqamı,
otaqdan çıxarır
toplaşanları.
Əvvəldən özüylə
bir küçük də gətirir.
Körpəni beşikdə
küçüklə dəyişir.
Sonra bacısına





belə söyləyir.
Sən bu nəslə
uşaq yox,
küçük gətirdin.
Şahlıq nəsilinə
xətər yetirdin.
Xəbər tutsa Şah
bu əməlindən.
Vurulacaq boynun
tamam dibindən.
Birgə fikirləşək
necə küçüyü
uşaqla dəyişək.
Bacısı ona
söyləyir belə.
Qonşu Məmləkətdə
bir naxırçının
yeni nəvəsi
gəlib dünyaya.
Gedim gecə ikən
götürüm
qayıdım bura.
Bacısı razılaşır
bu məsləhətlə.
Razıyam
Əvəz Naxırçıya
hər nə istəsə.
Bacısı küçüyü götürüb
keçir qonşu otağa.
Salır onu gətirdiyi
əski torbaya.
Uşaq da bələkdə
yatmışdı yaman.
Mümkün deyildi çıxmaq
bu cür saraydan.
Onlar ər-arvad
vaxt uzadırlar.
Küçüyü saraydan
çölə buraxırlar.
Sonra gəlib
bacısının yataq otağına.
Körpəni qoyur
onun yanına,
Söyləyir ki, bəs;
sənin həyatın
olmuşdu şikəst.
Bu bir sirdir
bilməsin heç kəs.
Qırx gün keçir
uşağın doğum günündən
Xalqına hədiyyə verir
öz kisəsindən.
Bir aylıq azuqədir
yeyib-içməyə.
Fərman verir Vəzirə
icra etməyə.
Həqiqət adı verilir
həmin körpəyə.
Körpə də böyüyür
keçdikcə illər.
Qarşıda gözləyir
görəcəkli günlər.
Ana isə həyatda
bax görür nələr.
Kənardan baxana
görünür belə.
Vaxtilə kasıb idi,
indisə varlı.
O, isə daxilən qəmli
görünür xaricən şənli.
Keçir ömür günləri
Çox sək-səkəli.
Bütün səlahiyyətləri
alıb, bacısı əlinə.
Amin deyirdi
hər kəlməsinə.
Ömrün əvvəlitək
vardır həm sonu.
Gərək dərk edək
hər zaman onu.
Qocalır bacılar
sirri heç də açmırlar.
Hiyləgər bacı çox
düşmüşdür heydən.
O, dünyasını
dərk edir birdən.
Düşünür, ay aman
mən nə etmişəm.
Bacımın həyatını
talan etmişəm.
İndi qocalıq donun
geyinmişəm
Halallıq yolunu
tam itirmişəm.
Bir gün yatarkən
görür yuxuda.
Bu sirri gərək
o, açıqlaya.
Sonra da ondan
halallıq ala.
Bacı da halallıq
verməsə ona,
lənətlə ömrünü
vuracaq sona.
Çağırıb bacısın
söyləyir belə,
aiddir körpənin
doğum gününə.
O vaxt körpəni
mən dəyişəm.
Sənin səlahiyyətlərinə
yiyələnmişəm.
Bərbadla mən
abad qurmuşam.
Etdiyim səhvləri
mən anlamışam.
Lənətlər içində
təkcə qalmışam.
Hərgah versən
halallıq mənə.
Günahsız dünyanı
tərk də edərəm.
O zaman halallıq
verməsən mənə.
Zamanın lənəti
düşər üstümə.
Bacı da eşitcək
bacının bu əməlini
bacının bacıya xəyanətini.
Çağırıb vəzirini
ona söyləyir.
Keçən günlərində
baş verənləri.
Halallıq istəyir
indi o, məndən.
Bilmirəm cavabın
mən bu sualın.
Toplayın Məmləkətin
tez igid xalqın.
Versin cavabın
həmən sualın.
Ağsaqqal, ağbirçəklər
gəlsin saraya,
Qiymət versinlər
bu əhvalata.
Heç vaxt həyatda
Gülmədi üzüm.
Bacı xəyanətinə
mən necə dözüm.
Siz deyin halallıq
düşürmü ona.
Versəm də halallıq
yaraşar ona?
**Son**